

**Kamal Bəyatlı**

**Şair, nasir, romançı, dramaturq Kamal Bəyatlı (1958, 19 iyul) Kərkükdə doğulub, orada ibtidai, orta məktəbləri və liseyi, Bağdad universitetinin mexanika fakültəsini bitirib (1981). İraq-İran müharibəsi zamanı cəbhədə döyüşüb, müharibəyə qarşı çıxdığına görə həbs edilib (1988). Sonra İraq-Küveyt müharibəsində iştirak edib, 1991-ci ildə Türkiyəyə qaçıb, İraq türkmanları ilə bağlı siyasi və ictimai hərəkatın iştirakçısı olub. 2002-2008-ci illərdə İraq Türkləri Kültür və Yardımlaşma dərnəyinin baş katibi kimi fəaliyyət göstərib, 2009-cu ildən İraq Türkman Mətbuat Komitəsinin baş katibi, 2011-ci ildən isə Türkmaneli Dərnəklər Federasiyasını sədridir.**

**K.Bəyatlı yaradıcılığa ötən əsrin 80-ci illərindən başlayıb, şeirləri, hekayələri, romanları, pyesləri dövri mətbuatda dərc edilib və ayrıca kitab şəklində çapdan çıxıb. Onun əsərlərində Kərkük və türkmanların yaşadıqları digər bölgələrdə baş verən hadisələr təsvir edilir. Poetik topluları, pyesləri, tərcümələri, "Maralın hekayələri" (2003), "Kərkükdə Korya bazarı" (2009), "Yad" (2015) hekayə kitabları, "Kərkük, səndən yazdım" (2008), "Kərkük və zaman" (2013), "Qasırğada yol gedənlər" (2020) romanları işıq üzü görüb.**

**K.Bəyatlı "Yurd" qəzetinin (1987), Bağdad Qardaşlıq Ocağının (2008), TÜRKSOY Kaşğarlı Mahmud adına kekayə müsabiqəsinin (2012, 2020) mükafatlarına layiq görülüb.**

# Təxirə salınmış haqq

**(hekayə)**

**Bütün məmləkəti yandırıb-yaxan seçki mitinqləri artıq son mərhələsinə çatmışdı. Mitinq, təbliğat, afişa və başqa şeylərin qadağan olunmasına iki gün qalmışdı. Partiyalar canfəşanlıqla məmləkətin hər tərəfinə cumurdular. Yığıncaqlarında proqramlarını izah eləyirdilər. Səs almaq üçün hər şeyə əl atırdılar. Dilin sümüyü olmadığı üçün ağlagəlməz vədlər verilirdi. Düzü, şəhərliyə ayrı, kəndliyə ayrı cür münasibətləri, yaltaqlıqları adamı heyrətə salırdı. Namizədlər başda olmaqla partiya funksionerləri meydana hər yerin öz geyimləriylə çıxırdılar. Həmin bölgə əhalisinin qəlblərini fəth eləmək üçün əllərindən gələn hər şey eləməyə çalışırdılar. Psixoloqlar üçün şəxsiyyət nöqteyi-nəzərindən "vəziyyətə görə davranmaq" çox yaxşı nümunə sayıla, diqqətəlayıq nəticə ola bilərdi. Həm də nəzərdən qaçırılmayacaq qədər vacib idi. Bəzisi namizəd kimi getdiyi yerə xas olan bir sıra deyimləri və yerli əhalinin istifadə elədiyi zarafatları, lətifələri, kitabları nəzərdən keçirib qeydlər aparır, meydanlara hazırlıqlı çıxırdı.**

Meydanlardan kənarda da seçki proqramları – harda nə iş görülməlidi, hansı gün hansi vilayətə, bölgəyə gedilməlidi, hansı tayfanın hansı əziz günü var, hansı bölgənin, yaxud çölün məhsulu yaxşı vəziyyətdə deyil – tutulmuşdu. Hər partiyanın da məxfi hazırlıq təşkilatı vardı. O heyət çox yaxşı işləyirdi. Əhalinin nəbzini, duyğusunu gözəl bilənlər, əslində, onlar idilər. Yalnız öz partiyalarının deyil, digər rəqib partiyaların da proqramlarını, planlarını, fəaliyyətini yaxından izləyirdilər. Bir səhv tutmağa, bir yanlış söz tapmağa çalışır, bəzən də rəqib partiyanın idarə heyətində olanların özüməməxsus xasiyyəti, vərdişi və ailəvi məsələlərini diqqətdə saxlayırdılar.

Dövrün dəbi olan insan haqları, qadın haqları, uşaq haqlarının – xülasə, haqla, hüquqlaq bağlı nə vardısa - əvvəlinə bir kəlmə artırıb, onların haqlarını axtarmaq, tapmaq, müdafiə eləmək, həyata keçirmək üçün beyin yormaq kimi məsələlər mitinqlərin əsas mövzusuna çevrilir, gündəmin ilk sıralarına keçirdi.

Partiyaların müdafiəçiləri neçə həftə idi ki, əllərində sənədlər ekrana çıxıb mənsub olduqları partiyaların haqlarla bağlı proqramlarını və aparılacaq islahatları televiziya verilişlərində uzun-uzadıpşərh eləyirdilər.

"Biz hansı dövrdə yaşayırıq... Haqq-hüquq dövründəyikg İnsanlıq və vətəndaşlıq haqqı varg Cəmiyyətdə bərabərlik əhəmiyətli haqdıg İnsanın ən təbii haqqı çörək-su haqıdıg Qadın haqlarıg Uşaq haqlarıg İşləmək haqıg Qazanc haqqıg Sindikat haqqıg Səhiyyə və təhsil haqları..."

Hər bir partiya "Bütün haqla-



ra biz cavabdehik!" – deyə bar-bar bağırırdı. Partiyalar arasındakı rəqabət elə bir səviyyəyə çatmışdı ki, cəmiyyətin hər bir təbəqəsiylə görüşmək və səsini almaq üçün kilometrlərlə məsafə qət eləyib cürbəcür dilə tutma səfərlərinə çıxmışdılar.

Ara elə qızışmışdı ki, bəzi vaxtlar namazdan sonra məscidin həyətində partiya namizədinin biri yanındakı əlaltılarıyla birgə çayxanaların qabağında altlarına kətil çəkir - demək istəyirdilər ki, "biz də kənd uşağıyıq", "biz də bu cəmiyyətin cəfakeş ailələrinin övladlarıyıq" – söhbəti hərlədib-fırladıb seçkilərin üstünə gətirirdilər. Necə də olsa, məsciddə gəlib-gedən qocaların həyatdan o qədər də çox umacaqları qalmamışdı, hər gün evlə məscid arasında keçən güzəranlarıyla yanaşı, ayda bir dəfə banka gedib təqaüdlərini almaqdan başqa dünyada yeni bir şey yox idi. Çayxananın qabağında yad bir adamın söhbətini dinləməkdən boyun qaçırmırdılar. Üstəlik, həmin adam təqaüdçülərin təqaüdünü artırmaq barədə danışırdısa, haqları olan, amma ala bilmədikləri puldan söz açıllırdısa, kim qulaq asmazdı axı...

***Bir gün bizim çayxanaya da belə bir partiya namizədi gəldi. Axşamüstüydü, çayxananın qabağında bir maşın dayandı. Sürücüdən başqa üç qalstuklu kişi içəri girdi. Çayxananın ağzınadək dolu olan vaxtıydı. Kişilərdən biri irəlidə gəlirdi. Digər ikisi də - biri sağında, o biri solunda, bir addım geridə - içəri girdilər.***

***İrəlidə gələn qalstuklu adam içəri girən kimi 'Salamün-əleyküm, ağalar!" –dedi. Çayxanadakılar gur səslə salam verən adama tərəf dönüb, bəzisi sağ əlini alnına, bəzisi də sinəsinə qoyub 'Və əleyküm-salam" deyə cavab verdilər.***

***"Ağalar, bəyəfəndilər, qardaşlar, on dəqiqənizi alma üçün sizdən izin istəyirəm",- həmin adam dilləndi.***

Çox nəzakətli və gülərüz tərzdə danışmağa başladı. Bütün siyasətçilər kimi hərəkət elədi. Sözdə bütün fəaliyyətlərinin xalq üçün olduğunu səyləsələr də, xalqdan izin istəməyi – həmişəki kimi - məsləhət bilmirdilər. Səs alıb millət vəkili, nazir olmalarının izin mənası vermədiyini də heç vaxt dərk eləmirdilər. Bunu da "siyasət belə tələb eləyir" deyib öz haqları sayırdılar. Dilə gətiriləndə zeytun yağı kimi üstə çıxmasınıda siyasətçilik bacarığına yozurdular. Kimsənin "Buyurun" deməməsinə baxmayaraq, sözə başladı.

"Bilirsiniz ki, iki gündən sonra ökləde seçki olacaq. Xahiş eləyirəm, qutunun yanına çatan kimi, bu qısa və xüsusi xatırlayasınız".

Çayxanadakıların bəziləri danışan partiya nümayəndəsinin üzünü yaxşı görmək üçün kətillərini rahatlayıb dinləməyə başladılar.

"Bir partiya kimi proqramlarımızda ən çox yer verdiyimiz birinci məsələ məmləkətdə insan haqlarıdı. Bu sahədə qadın haqlarına, uşaq haqlarına, təqaüdçü –bu məqamda qocalara işarə elədi – haqlarına əhəmiyyət verən partiya olduğumuzu, belə güman eləyirəm ki, aranızda bilməyənn yoxdu. Mən bunu bird aha xatırlatmaq istərdim. Ədalət, iqtisadiyyat, inşaat, səhiyyə məsələlərinin üstündən keçirəm. Çünki bunlardan yoldaşlarımızın televiziya kanallarında kifayət qədər söz açdıqlarına inanıram. Başlıcası budu ki, yaşayıb vədlərimizi yerinə yetirdiyimizi görəcəksinizg Gələcəkdə sözümüzün ağası olduğumuzu artıqlamasıyla sübuta yetirəcəyik.

İşçi haqlarına da toxunmaq istəmirəm. Onların vəziyyəti çox dəhşətlidi. Bu cəmiyyətdə ən çox ziyan görən təbəqə onlardı. Alın təriylə zəhmət çəkib haqqını almayan böyük bir kütlə yaranıb. Bu cəmiyyətimizin qanayan yarasıdı. İşçilərin zəhmətinə layiq şəkildə həll yolları hazırlamışıq. İnşallah, bu çətinlik də aradan qalxacaq.

Zavallı insanların vəziyyətini sədrimiz də ümumi müşavirələrdə tez-tez dilə gətirir. Qəzetlərdə partiyamızın proqramında əhəmiyyətli yer tutan, xalqın hər bir təbəqəsini əhatə eləyən insan haqları maddəbəmaddə dərc edilib. Qəzetlər proqramımıza nəyə görə bu qədər əhəmiyyət verirlər? Çünki, biz də bu cəmiyyətin ziyan çəkən adamlarıyıq. Bizim ailələrimiz də sizin kimi çətinlik çəkir. Bu məsələylə ciddi şəkildə məşğul olmaq istəməyimizin ən böyük səbəbi budur ki, sizin yaşadıqlarınız, duyğularınız və çətinlikləriniz partiyamıza daha yaxşı məlumdu. Sizdən güc alıb xalqımıza fədakarlıqla xidmət eləmək istəyirik.

Səmimiyyətlə deyirəm, proqramlarımız arasında - yenə qocalara üz tutub sözünə davam elədi, - darül-acizə - düşgünlər eviylə bağlı yeni layihələrimiz var. İqtidara gəlsək, həmin layihəni görəcəksiniz Heç bir qoca küçədə qalmayacaq, onun-bunun mərhəmətinə möhtac olmayacaq..."

***Bu məqamda çayçı masanın üstünə incəbel stəkanlarda doşvşan qanı rəngində çay qoydu. Çayçının bu səxavəti içərindəkilərin gözündən qaçmadı. Əlbəttə ki, bizim çayçının səxavət-filanla arası olan deyil. Ümidvardı ki, o bəylər çayxanadan çıxanda üç stəkan çay üçün əməlli-başlı pul verəcəklər. Natiq qabağına qoyulmuş çatdan bir qurtum aldı. Qənd salmadı. O, getdiyi çayxanaların hər birində çay içən zaman qənd salsaydı, şəkəri qalxardı.***

***"Ağalar, qardaşlar, hamının halal işi olacaq. Bütün çətinliklərin əsas çözüm yolu seçkiyə gedib milli vəzifəmizi yerinə yetirmək, vətən eşqimizi göstərməkdədig Əlbəttə ki, partiyamızın müdafiə elədiyi haqları nəzərə alıb səs verməyinizi çox xahiş..."***

O, sözünü tamamlamağa macal tapmadı, çayxananın bir küncündə təkcə oturmuş Cəmil əmi artıq kisəsindən çıxardığı tütünü bükmüşdü, dilinin ucuyla cığaranın kənarlarını isladıb yapışdırırdı, qəfildən üzünü partiya namizədinə tutdu:

"Bəyim, - dərhal üç partiyaçı və çayxanadakıların hamısı Cəmilo əmiyə tərəf döndü, - partiyanızın müdafiə elədiyi bütün haqlardan söz açdınız, bəs partiya proqramınızda ata-ana haqları barədə bir maddə varmı?"

Cəmil əminin bu sözləri çayxanada çay içənlərin çıxardıqları səsləri boğdu, partiya nümayəndəsi ağzına apardığı stəkanı havada saxlama məcburiyyətində qaldı. Bir anlığa içəridə səs-səmir eşidilmədi. Yerə iynə düşsə, tappltısı eşidilərdi. Partiya nümayəndəsi çaşdı:

"E-e-e... E-e-e..."

Cəmil sözünə əmi davam elədi:

"Ata-ana haqqından xəbəri olmayan millətin, vətənin, bayrağın haqınıhardan biləcək, bəyimg Qadın haqqıg Uşaq haqqıg Ancaq haqında danışdığın bütün haqlar ata-ana və övlad münasibətində var, bəyimg Ata-ana haqqından xəbəri olmayan xeyirxahlığı, ədaləti necə dərk eləyə bilər, bəyim? Aşın-maaşın halalını ana südünü damcı-damcı əmən uşaq bilər. Övlad ata-anadan, ata-ana övladdan razı olanda kimsəsizlər evinə ehtiyac da qalmaz. Gerisi təsbeh dənələri kimi özü gələr..."

***'Cəmil əmi düz deyir", - sözləri masadan-masaya yayılmağa başladı.***

***Çayxananı uğultu bürüdü. Hər ağızdan bir avaz gəlirdi. Partiya nümayəndələri vəziyyəti düzəltməyə çalışsalar da, heç cür nail ola bilmədilər. Natiq və onunla gələn partiya üzvləri gətirdikləri broşürləri paylamağa cəsarət eləmədilər. Nə baş verdiyini başa düşməyib çaşdılar. Döyüşdə məğlub olan əsgərlər kimi, başlarını aşağı salıb dalıdalı çayxanadan çıxdılar.***

***Çayxanadakı adamlar gecədən xeyli keçənəcən Cəmil əminin sözləriylə bağlı əhvalatlar danışdılar. Az qala, hamısının sözü ya 'Rəhmətlik atamg", ya da 'Rəhmətlik anamg" kəlməleriylə başlayıb, xatirələrini danışmağa başladılar.***

**Tərcümə:**
**Nəriman Əbdülrəhmanlı**